*Hekayə*

# Kirpiklərin pıçıltısı



■ **Fazil SƏNAN**
*Yazıçı-publisist*



Aradan üç aya yaxın vaxt keçməsinə baxmayaraq bir anda olsa Xumarı unutmamışdı. Xumarın şəklinə baxmaqla özünü ovundururdu. Xumarın zəng etməməsi ürəyinə səpilmiş şübhə toxumlarının getdikcə pöhrələnməsinə səbəb olurdu. Bəzən hissləri ağlını üstələyəndə, qısqanclıq alovunda pörşələnəndə dəli bir fikir rahatlıq vermirdi: "Bu necə eşq, məhəbbətdir ki, üç ayda sənə bir zəng də etmir. Görünür başqası ilə öz kefindədi. Yox ola bilməz. Sevənlər çox qısqanc olurlar. Otello da qısqanclıqdan yaxa qurtara bilmədiyi üçün canından artıq sevdiyi Dezdemonanı boğub öldürdü. Yoxsa, sən də Otello yolu getmək istəyirsən?.." fikirlərinin zülmət dünyasında işartı axtarsa da çıxış yolu tapa bilmirdi. Ürək əvəzinə içərisindən daş asaraq gözürdü. Gözləyirdi ki, görsün bu ayrılığın sonu varmı?

Hara baxırdı hər tərəfdə Xumarı görürdü. Son zamanlar əhvalında baş verən dəyişiklik evdəkilərə maraqlı görünsə də üstünü vurmurdular. Öz-özlüyündə çox götür-qoy edirdi. Ayrılıqdan başqa ayrı çıxış yolu görmürdü. Bəzən Xumarı qınayırdı ki, haradan onun yolu üstünə çıxdı. Tez də fikrini dəyişirdi və öz-özünə sual verirdi. "Nə vaxt Xumar sənə "Səni sevirəm", "Səninəm" və s. sözlərini deyib ki, indi də onu suçlayırsan?"

* * *

Gecə yarı yuxudan ayıldı. Bütün bədəni tər içindəydi. Stolüstü lampanı yandırıb gördüyü yuxu barədə düşünməyə başladı: "Bir nəfər Xumarı qovur. Xumar isə var gücü ilə qaçır. Xumar bir sıldırım qayanın başına çıxıb dibi görünməyən uçuruma boylanır. Qovanın uçurumun qasında dayanmış Xumara "Xumar, atma özünü uçuruma! Mən səni sevirəm, sənin üçün uf demədən həyatımdan keçməyə hazıram". Xumar isə geri çönərək diz üstə çökmüş "aşiqinə" deyir:

- Neçə dəfə sizə demişəm, əl çəkin, məndən! Mən başqasınınam.

- Heç kimin ola bilməzsən. Səni Allah mənim üçün yaradıbdı. Ya mənim olmalısan, ya da qara torpağın".

Diz üstə çökən aşiq gözlənilmədən yerindən sürətlə qalxaraq Xumara tərəf yüyürdü ki, onu ölümün caynağından xilas etsin. Oğlan ona çatdığı məqamda Xumar qollarını açaraq "S...ə...n...a...n!!! Mən səninəm. Qurtar məni! " sözlərini deyib özünü uçuruma tulladı.

Xumarın çığırtısına yuxudan oyanan Sənan "Yox, Xumarın başında nəsə var", fikri ilə səhəri dirigözlü açdı.

İstədi zəng etsin. Amma nə fikirləşdisə qəflətən getməyə üstünlük verdi. Fikirləşdi ki, xəbərsiz getməyin iki üstünlüyü var. Görüm iş yerindədirmi, kimlə oturub-durur, həm də qəfil gəlişimi sürpriz kimi qarşılayacaqmı? İçində üç aylıq ayrılıq hicranının göynərtisinə son qoymaq arzusu ilə, bir də onda özünə gəldi ki, Xumarın iş otağının qapısında dayanıb. Bir anlıq tərəddüddən sonra qapını döymədən yavaşca aralayıb içəri keçdi. Kompyuterin arxasında əyləşmiş Xumar başıaşağı əlində nəsə yazır, qapının açılmasından isə xəbəri olmadı. Sənan Xumarı görəndə hisslərini zorla cilovlayaraq qışqırmaqdan özünü güclə saxladı.

Birdən başını qaldıran Xumar qapının ağzında heykələ dönmüş Sənanı görəndə ilk öncə özünü itirdi, gözlərini silib yenidən "Yox, ola bilməz!" deyib ayağa qalxmaq istəsə də ayağa dura bilmədi.

Gözlərinin üstünə tökülmüş qara saçlarını əli ilə arxaya daraqladı. Uzun, qara kirpikləri yuxarı qalxdı, qara gözlərindən səssiz axan yaş, lalə yanaqlarında iz buraxaraq yumru çənəsindən sinəsinə damcılayırdı. Başını aşağı tikən Xumar kirpiklərini qaldırdıqca uzun qara kirpikləri sanki Sənanın sinəsindən keçirdi. Sənan yaxınlaşıb Xumarın əlindən tutub kompüterun arxasından ayağa qaldırdı və sinəsinə sıxdı. Xumar başını Sənanın sinəsinə söykəyib ürək döyüntülərinə diqqət kəsildi. Bir azdan başını yuxarı qaldıran Xumar:

- Sənan, ürəyin az qalır köksündən çıxsın.

- Sevincdəndir.

Sənan Xumarın sinəsinə söykənmiş qara saçlarını sığallayıb, sağ əli ilə çənəsini yaxarı qaldırdı və yaş içərisində boğulmuş qara giləyə bənzər gözlərində öz əksini axtarmağa başladı.

- Mənsiz darıxırdınmı? - Sənan soruşdu.

Xumarın qara uzun kirpikləri enib qalxdı.

- Məni sevirsənmi? - Sənan yenidən Xumarın gözlərinə baxdı.

- Xumarın uzun kirpikləri yenidən yanaqlarına kölgə salaraq yuxarı qalxdı.

- Ay qız, deyəsən ürəyindən keçənləri kirpiklərin pıçıldayır? - Sənan gülümsündü.

Razılığını bildirən qara kirpiklər yenidən aşağı enib qalxdı. Sənan Xumarı sinəsinə sıxaraq əvvəlcə onun lalə yanaqlarını isladan sevinc yaşlarını əli ilə sildi, sonra "Sevirəm" sözünü pıçıldayan uzun kirpiklərindən və qara gözlərindən öpdü.